31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günüdür



*İndi Ermənistan adlanan ərazi, Qərbi Azərbaycan-İrəvan mahalı, Göyçə mahalı, Zəngibasar mahalı tarixi Azərbaycan torpağıdır.*
**Heydər ƏLİYEV**

*Bu gün biz yaxşı bilirik ki, Ermənistan dövləti tarixi Azərbaycan torpağında yaranıb. Zəngəzur, Göyçə mahalı, İrəvan bizim doğma torpaqlarımızdır. Biz qayıdacağıq.*
**İlham ƏLİYEV**

Bir parça daş vətəndir!
*Mahirə NAĞIQIZI*

# YURDUN SƏSİ

№ 15 Dekabr 2025-ci il




**Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan İlham Əliyev Ulu Öndər Heydər Əliyevlə bağlı rəsmi sosial şəbəkə hesablarında foto paylaşıb.**

**AZƏRTAC xəbər verir ki, paylaşımda deyilir: "12 Dekabr - Ümummilli Lider Heydər Əliyevin Anım Günü".**

## "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası – ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda ənənəvi III beynəlxalq konfrans

**Dekabrın 5-də Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası – ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda ənənəvi III beynəlxalq konfrans keçirilib.**

Konfransda dünyanın 60-dan çox ölkəsini təmsil edən 100-ə yaxın qonaq, Azərbaycandan 100-dən çox ekspert, alim, ictimai xadim və dövlət rəsmiləri, Milli Məclis deputatları iştirak ediblər. Konfransın açılışında Qərbi Azərbaycan İcmasının ölkədaxili və beynəlxalq fəaliyyətindən, Ulu Öndər Heydər Əliyevin və Prezident İlham Əliyevin Qərbi Azərbaycan məsələsinə həssas münasibətindən bəhs edən film nümayiş etdirilib. Prezident Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətini oxuyub.

Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, Milli Məclisin deputatı və Qayıdış üzrə Təşəbbüs Qrupunun sədri Əziz Ələkbərli salamlama nitqi ilə çıxış edərək İcmanın əsas missiyasının 200 ildən artıq müddətdə mərhələ-mərhələ Ermənistandan qovulmuş azərbaycanlıların dinc, təhlükəsiz və ləyaqətli şəkildə öz yurdlarına qayıdış hüququnu təmin etmək olduğunu, azərbaycanlıların Ermənistandan kütləvi deportasiyalarının əsrlər boyu formalaşmış maddi və qeyri-maddi mədəni irsi sistemli şəkildə dağıtdığını bildirmiş və Ermənistanla sülh prosesinin irəliləməsi fonunda erməni və azərbaycanlıların birgəyaşayışının yeganə yolunun qayıdış hüququnun tanınması olduğunu vurğulamış, beynəlxalq ictimaiyyəti bu ədalətli prosesə dəstək verməyə çağırmışdır.

Xarici qonaqlar adından Türkiyə Böyük Millət Məclisinin üzvü, Qərbi Azərbaycan İcmasının Fəxri üzvü Şamil Ayrım çıxış edərək qardaşlıq mesajını çatdırmış və Qərbi azərbaycanlıların yaşadığı deportasiyaların insanlığa qarşı törədilmiş ağır cinayət, regionda balansı pozmuş tarixi ədalətsizlik olduğunu bildirmişdir. Türkiyənin həmişə Azərbaycan xalqının yanında olduğunu vurğulayan natiq, Ermənistanın monoetnik dövlətə çevrilməsinin nəticələrinin regionda yaratdığı təhlükələri diqqətə çatdırmış və qayıdışın ədalət və sülh üçün vacib olduğunu bildirmişdir.

Açılış sessiyasından sonra Türkiyə, ABŞ, Cənubi Afrika Respublikası, İtaliya, Litva və Misiri təmsil edən, Qərbi Azərbaycan məsələsinə böyük dəstəyini göstərən 7 şəxsə Qərbi Azərbaycan İcmasının fəxri üzvlük sertifikatları təqdim olunub.

*(Davamı səh.2-də)*



## Qərbi Azərbaycan İcmasının üzvlərindən

**Möhtərəm cənab Prezident.**

2025-ci il Azərbaycanın şanlı tarixinə Sizin müdrik rəhbərliyiniz altında əldə edilmiş böyük nailiyyətlər ili kimi yazıldı. Bu il xalqımızın birliyi, dövlətimizin qüdrəti və Sizin yorulmaz fəaliyyətiniz sayəsində ölkəmiz həm daxili, həm də beynəlxalq arenada misilsiz uğurlara imza atdı.

Xüsusilə qeyd etmək istərdik ki, 2025-ci il avqustun 8-də Vaşinqtonda Azərbaycan və Ermənistan arasında sülh sazişinin paraflanması Zati-alinizin tarixi uzaqgörənliyinin və qətiyyətinin nəticəsidir. Bu, regionumuzda davamlı sülhün və sabitliyin bərqərar olması istiqamətində atılmış ən mühüm və həlledici addım idi. Sazişin müddəaları, o cümlədən Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında maneəsiz əlaqənin təmin edilməsi dövlət maraqlarımızın qorunmasına yönəlmiş diplomatik zəfərdir.

Biz, Qərbi Azərbaycan İcmasının üzvləri Zati-alinizin doğma torpaqlara qayıdışla bağlı bəyan etdiyi qətiyyətli mövqeyi və göstərdiyiniz davamlı dəstəyi xüsusi minnətdarlıq hissi ilə vurğulayırıq. Bu dəstək hər bir Qərbi azərbaycanlıya böyük ruh yüksəkliyi verir, tarixi ədalətin bərpasına və əcdadlarımızın yurduna dinc, ləyaqətli və təhlükəsiz qayıdışımıza olan inamımızı daha da artırır.

Möhtərəm cənab Prezident, Ulu Öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirərək Azərbaycanı böyük qələbələrə aparan Zati-alinizi doğum günü, Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə ürəkdən təbrik edir, cansağlığı, yeni-yeni uğurlar arzulayır və şəxsinizə dərin ehtiramımızı bildiririk.

*Dərin hörmət və ehtiramla,*
***Əziz Ələkbərov,***
*Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədri, Milli Məclisin deputatı,*
***Misir Mərdanov,***
*İcmanın Müşahidə Şurasının sədri, AMEA-nın müxbir üzvü,*
***Vahid Novruzov,***
*Nəzarət-Təftiş Komissiyasının sədri, professor,*
***Əhliman Əmiraslanov,***
*İcmanın Ağsaqqallar Şurasının sədri, Milli Məclisin deputatı, akademik,*
***Məlahət İbrahimqızı,***
*Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı,*
***Şahin İsmayılov,***
*Gənclər Şurasının sədri, Milli Məclisin deputatı,*
***Elxan Hüseynov,***
*Ziyalılar Şurasının sədri, professor,*
***Mürvət Həsənli,***
*Qəyyumlar Şurasının sədri.*
*Azərbaycan Respublikası, Bakı şəhəri*

# “Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası – ədalətə, barışığa və sülhə aparan yol kimi” mövzusunda III beynəlxalq konfransın iştirakçılarına

**Hörmətli konfrans iştirakçıları!**

Sizi “Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası – ədalətə, barışığa və sülhə aparan yol kimi” mövzusuna həsr olunmuş III beynəlxalq konfransda ürəkdən salamlayıram.



Qədim dövlətçilik və mədəniyyət tarixinə malik Azərbaycan xalqı son iki əsrdə dəfələrlə məhrumiyyətlər, deportasiyalar və soyqırımları ilə üz-üzə qalmış, ermənilərin Azərbaycanın əzəli torpaqlarına köçürülməsindən sonra – 1905–1907, 1918–1921, 1948–1953 və 1987–1991-ci illərdə azərbaycanlılara qarşı törədilən qırğınlar və qanunsuz köçürmələr nəticəsində yüz minlərlə soydaşımız öz doğma yurdunu tərk edərək Azərbaycana sığınmışdır.

Ermənistan ərazisində yaşayan azərbaycanlıların dağlıq bölgələrdən daha isti iqlimi olan yerlərə zorla köçürülməsi, onların illərlə qurub-yaratdıqları mülkiyyətin mənimsənilməsi, maddi-mədəniyyət nümunələrinin ələ keçirilərək dağıdılması və özgəninkiləşdirilməsi bu gün mötəbər sənədlərlə sübuta yetirilən tarixi faktlardır.

Ermənistan tarixən Qərbi Azərbaycanda yaşamış azərbaycanlıların zəngin maddi və qeyri-maddi mədəni irsini, müqəddəs inanc yerlərini, qəbiristanlıqlarını öz ərazisindən Azərbaycan xalqının izlərini silmək məqsədilə zaman-zaman məhv etmişdir. Ermənilərin azərbaycanlılara qarşı insanlıq əleyhinə cinayətlərinin beynəlxalq hüquq müstəvisində qiymətləndirilməsi üçün lazımi addımlar atılması və beynəlxalq ictimaiyyətin bu məsələdə bizə dəstəyi olduqca əhəmiyyətlidir.

Bu gün Ermənistandan zorla çıxarılmış azərbaycanlıların qayıdışının Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda, Qaçqınların statusu haqqında Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıdış hüququ çərçivəsində təmin edilməsi, eləcə də mədəni irsin bərpası və qorunması ilə bağlı beynəlxalq ictimaiyyətin, o cümlədən BMT-nin ixtisaslaşmış qurumlarının iştirakı ilə prosesin başladılması üçün səylərin artırılması vacibdir. Çünki qayıdış hüququ insan hüquqlarının təməl prinsiplərindən biridir. Bu hüququn təmin edilməsi təkcə doğma yurda fiziki dönüş deyil, həm də toplumun mənəvi bütövlüyünün, mədəni irsinin və tarixi yaddaşının bərpası deməkdir.

Ermənistandakı Azərbaycan mədəni irsinin bərpası və qorunması Azərbaycan xalqının legitim tələbi olmaqla, ümumbəşəri dəyərlərə hörmət, düşmənçilik səhifəsinin qapanması, xalqlar arasında qarşılıqlı anlaşma üçün zəruridir.

Deportasiya və qırğınlardan birbaşa əziyyət çəkən insanları özündə birləşdirən Qərbi Azərbaycan İcmasının təmkinli, konstruktiv yanaşması, barışıq və dialoqa açıq olması, öz fəaliyyətini beynəlxalq hüquqa uyğun qurması, dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmət etməsi təqdir olunmalıdır.

2025-ci il avqustun 8-də Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının vasitəçiliyi ilə Azərbaycan və Ermənistanın bir araya gəlməsi, Birgə Bəyannamənin imzalanması və sülh sazişi layihəsinin paraflanması hər iki xalqın gələcək birgəyaşayışının təmin olunması üçün ümid və inam yaradır.

İnanırıq ki, Qərbi Azərbaycan İcmasının sülhsevər üzvləri öz ata-baba yurdlarına qayıdacaq və xalqlarımız arasında mehriban qonşuluq münasibətləri yaranacaqdır.

Artıq beynəlxalq platformaya çevrilən bu ənənəvi beynəlxalq konfransın işinə uğurlar arzulayır, keçiriləcək müzakirələrin mədəni irsin qorunmasına və qayıdış hüququ barədə anlaşmaya, soydaşlarımızın doğma torpaqlarına təhlükəsiz və ləyaqətli şəkildə, sülh yolu ilə qayıdışına töhfə verəcəyinə, barışıq və sülhə aparan yolda mühüm addım olacağına əminliyimi bir daha vurğulayıram.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının***
***Prezidenti***

*Bakı şəhəri, 5 dekabr 2025-ci il.*

# “Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası – ədalətə, barışığa və sülhə aparan yol kimi” mövzusunda ənənəvi III beynəlxalq konfrans




*(Əvvəli səh.1-də)*

Milli Məclisin deputatı, ADA Universitetinin prorektoru Fariz İsmayılzadənin moderatorluq etdiyi konfransın qayıdış hüququnun hüquqi və mənəvi əsaslarının təhlilinə həsr olunmuş ilk panelində çıxış edən İbn Haldun Universitetinin Heydər Əliyev adına Avrasiya Araşdırmalar Mərkəzinin direktoru professor Yaşar Sarı, fransalı tarixçi Dr.Maxime Gauin, Harvard Universitetinin tədqiqat direktoru Dr.Mark Nathan Kramer, eləcə də İspaniyanın Panavropa təşkilatını təmsil edən Professor Carlos Uriarte beynəlxalq təcrübə fonunda qayıdış hüququnun dövlətlərarası münasibətlərdəki yerindən və Ermənistanın üzərinə düşən humanitar öhdəliklərdən bəhs etmişdir.

Böyük Britaniyadan Klaus-Peter Ralf Juergens moderatorluq etdiyi maddi irsin qorunması məsələlərinə həsr edilmiş ikinci paneldə çıxış edən Pakistan Ali Məhkəməsinin vəkili Muhammad Sohail Sajid, İtaliya-Azərbaycan Assosiasiyasının vitse-prezidenti Dr.Carlo Marino, İndoneziya İƏT Gənclər Təşkilatının prezidenti Astrid Nadya Rizqita və amerikalı professor Michael Martin Gunter Ermənistan ərazisində Azərbaycan irsinə qarşı aparılmış dağıdıcılığın hüquqi qiymətləndirilməsi və bərpa imkanları barədə fikirlərini bölüşdülər.

Polşadan AVIM təmsilçisi Jakub Koreybanın moderatorluq etdiyi qeyri-maddi irs – aşıq sənəti, musiqi, folklor, şifahi yaddaş, mədəni ənənələr – mövzusuna həsr edilən üçüncü paneldə çıxış edən Bolqar Elmlər Akademiyasının professoru Dr.Nadia Boyadjieva, “artXchange Global” təşkilatının direktoru Dr.Ornela Ramasauskaite, İordaniya Haşimi Universitetindən Professor Moh’d Wahib Ali Hussein və isveçli rejissor Mikael Silkeberg çıxışlarında mədəniyyətin qaçqınlığa məruz qalmış icmaların kimliyini qorumaqda rolunu və Qərbi Azərbaycan irsinin dünyaya tanıdılması yollarını vurğuladılar.

ABŞ-ın Qrinsboro Universitetindən professoru Ali Kaan Askerin moderatorluq etdiyi beynəlxalq əməkdaşlığa həsr olunmuş sonuncu paneldə çıxış edən Türkiyə Milli Müdafiə Universitetinin dekanı Dr.İbrahim Ethem Atnur, Almaniyanın BWA Qlobal İqtisadi Şəbəkəsinin federal direktoru Urs Emil Unkauf, Latviyanın Nəqliyyat və Telekommunikasiya İnstitutunun professoru Juris Maklakovs və Qırğızıstandan sabiq səfir, Dr.Kairat Osmonaliyev qayıdış hüququnun müdafiəsində qlobal həmrəyliyin gücləndirilməsi, təşkilatlararası əməkdaşlığın genişləndirilməsi və beynəlxalq hüquqi alətlərin effektiv tətbiqindən danışdılar.







Sonda Beynəlxalq Final Universitetinin professoru, Qərbi Azərbaycan İcmasının fəxri üzvü Hüseyin Işıksal konfransın yekun sənədini səsləndirmiş, sonra Qərbi Azərbaycan İcması adından İcmanın Nəzarət-Təftiş Komissiyasının sədri Professor Vahid Novruzov çıxış edərək konfransın nəticələrini yüksək qiymətləndirmiş və İcmanın apardığı haqq işinə dəstək verən konfrans iştirakçılarına təşəkkürünü bildirmişdir.

Tədbir Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpasının təkcə tarixi ədalət deyil, həm də regionda dayanıqlı sülh və barışın bərqərar olması üçün mühüm şərt olduğunu bir daha təsdiqləmiş, Qərbi azərbaycanlıların qaçqınlıq həyatı, onların maddi və qeyri-maddi irsinin sistemli şəkildə dağıdılması, təhrif edilməsi və mənimsənilməsi ilə bağlı geniş məlumat əldə edən konfrans iştirakçıları mədəni irsin qorunması, bərpası və gələcək nəsillərə ötürülməsi istiqamətində beynəlxalq əməkdaşlığın gücləndirilməsinə çağırış etmişlər.

**1 dekabr 2025-ci il tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi Qərbi Azərbaycan İcması və Azərbaycan Dövlət Pedaqoji Universiteti ilə birgə gənc nəslin maarifləndirilməsi məqsədilə "Sülh və reinteqrasiya prosesində qadınların iştirakı: milli və beynəlxalq mexanizmlər" mövzusunda konfrans keçirib. Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov salamlama nitqi ilə çıxış edərək, bugünkü tədbirin mövzu baxımından strateji əhəmiyyətli olduğunu, həm də qadınların sülh quruculuğu proseslərində rolunun qlobal və milli səviyyədə gündəmdə olmasına görə xüsusi aktuallıq kəsb etdiyini vurğulayıb.**



# "Sülh və reinteqrasiya prosesində qadınların iştirakı: milli və beynəlxalq mexanizmlər" mövzusunda konfrans



Müasir dünyada sülhün qorunması və reinteqrasiya proseslərinin ardıcıl şəkildə həyata keçirilməsinin yalnız hərbi-siyasi qərarların deyil, eyni zamanda geniş ictimai konsensusun, sosial inteqrasiyanın və humanitar siyasətin kompleks şəkildə icrasının nəticəsi olduğunu bildirən rektor, bu məsələlərdə qadınların fəal iştirakının dünya təcrübəsində təsdiq olunmuş ən effektiv yanaşmalardan biri olduğunu qeyd edib.

O diqqətə çatdırıb ki, qadınların cəmiyyətdə rolu yalnız hüquqi təminatlarla məhdudlaşmır, həm də sosial-mədəni inkişafı şərtləndirən fundamental amillərdən biri kimi çıxış edir. Bu mənada, qadının təhsil səviyyəsi bütövlükdə ölkənin intellektual potensialının formalaşmasına təsir edən strateji faktordur. Rektor əlavə edib ki, ADPU-da təhsil alan gənc xanımlar yalnız bilik qazanmır, həm də yüksək mənəvi dəyərlər, vətənə xidmət ideyası və sosial məsuliyyət hissi ilə formalaşırlar.

"Gələcəyin qadın müəllimləri məktəblərdə milli-mənəvi dəyərlərin təbliğində, tolerantlıq və humanizm prinsiplərinin aşılanmasında, reinteqrasiya proseslərində sosial münasibətlərin sağlamlaşdırılmasında mühüm rol oynayacaqlar" - deyən C. Cəfərov xüsusilə, müharibə və postmünaqişə dövrünün reallıqları fonunda qadın müəllimlərin maarifləndirici missiyasının daha da dəyərli və vacib olduğunu vurğulayıb.

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova mövzunun həm tarixi yaddaşın qorunması, həm də strateji hədəflər baxımından xüsusi əhəmiyyət daşıdığını bildirib. O, çıxışında Ümummilli Lider Heydər Əliyevin Azərbaycana qayıdışının dövlətçiliyin xilasında və milli iradənin dirçəlişində oynadığı misilsiz rolu vurğulayıb və qeyd edib ki, məhz Ulu Öndərin rəhbərliyi ilə dünya azərbaycanlılarına qarşı soyqırımı faktları və Qərbi Azərbaycan əhalisinin deportasiyası ilk dəfə dövlət səviyyəsində tanınıb və tarixə yazılıb.

Komitə sədri bildirib ki, bu tarixi xətt Prezident İlham Əliyevin siyasəti ilə yeni mərhələyə keçib və Qərbi Azərbaycana qayıdış ideyası real siyasi gündəliyə daxil edilib. O, dövlət başçısının bu istiqamətdə hərbi-siyasi, hüquqi-diplomatik və sosial-iqtisadi tərəfləri ilə vacib olan konseptual çərçivə yaratdığını qeyd edib. Qərbi Azərbaycana Qayıdış Konsepsiyasının qəbulu, diplomatik fəaliyyət, beynəlxalq platformalarda qayıdış hüququnun vurğulanması və Qərbi Azərbaycan İcmasına davamlı dəstək bunun bariz nümunəsi kimi göstərilib.

Qərbi Azərbaycan İcmasının yarandığı gündən etibarən bu məramın daşıyıcısı və təşəbbüskarı kimi çoxşaxəli fəaliyyət göstərdiyini diqqətə çatdıran B. Muradova İcmanın Qadınlar Şurasının deportasiya olunmuş qadınların hekayələrinin toplanması, mədəni irsin, ənənəvi sənətlərin, – xüsusilə xalçaçılığın– qorunması, qadınların sosial fəallığının artırılması istiqamətində mühüm təşəbbüslərə imza atdığını qeyd edib. Bu fəaliyyətin həm ictimai həmrəyliyin güclənməsinə, həm də qayıdışla bağlı humanitar və mədəni əsasların möhkəmlənməsinə xidmət etdiyini əlavə edib.

Konfransın proqramında yer alan mövzulara toxunan Komitə sədri bildirib ki, Qərbi Azərbaycan Andının təqdimatı, hüquqi qiymətləndirmələr, mədəni irs məsələləri, tarixi yaddaş, maarifçilik hərəkatı və qadınların bu proseslərdə aparıcı rolu – bütün bunlar qayıdış ideyasının yalnız siyasi deyil, həm də mənəvi, tarixi və humanitar təməllərə söykəndiyini əsaslandıran vacib istiqamətlərdir.

Komitə sədri, həmçinin, ölkədə keçirilən "16 günlük zorakılığa qarşı fəallıq kampaniyası" ilə əlaqədar qadın və uşaqların təhlükəsizliyinin dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu bildirib. Bu kampaniya qlobal təşəbbüsün tərkib hissəsi olmaqla yanaşı həm də milli siyasətimizin humanist və modern ruhunun təqdimatı üçün də yararlı bir platformadır. O, BMT Təhlükəsizlik Şurasının 1325 saylı qətnaməsinə uyğun olaraq qadınların sülh və reinteqrasiya proseslərində iştirakının vacibliyini xüsusi qeyd edib.

Dekabrın 2-nin deportasiya olunmuş soydaşların günü kimi qeyd edilməsinə toxunan Komitə sədri bildirib ki, məqsəd yalnız tarixi xatırlamaq deyil, həm də Cənubi Qafqazda sülhün, rifahın və təhlükəsiz qayıdışın təmin olunmasına yönəlmiş dövlət siyasətini gücləndirməkdir.



Sonda Bahar Muradova konfrans iştirakçılarına uğurlu müzakirələr arzulayıb və tədbirin dövlət siyasətinə və ictimai fəaliyyətə mühüm töhfə verəcəyinə əminliyini bildirib.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin sədr müavini, Milli Məclisin deputatı Hikmət Məmmədov bildirib ki, tarixi yaddaşı və milli kimliyi qorumaqla, sülh yolu ilə qayıdış konsepsiyası çərçivəsində əhalinin öz doğma torpaqlarına dönməsi əsas hədəf kimi müəyyən olunub.

O qeyd edib ki, cəmiyyətin müxtəlif institutlarının, vətəndaş cəmiyyətinin və dövlət qurumlarının bu prosesdə fəal iştirakı vacibdir, bu istiqamətdə ictimai maarifləndirmə fəaliyyətlərinin gücləndirilməsi xüsusi əhəmiyyət kəsb edir. Hüquqi və tarixi aspektlərini mənimsəməklə biz bu tarixi reinteqrasiya mərhələsini həyata keçirə bilərik.

Daha sonra Qərbi Azərbaycan Televiziyasının hazırladığı "Qayıdış Andı" adlı video çarxın təqdimatı olub.

Tədbir Qərbi Azərbaycan İcmasının Qadınlar Şurasının sədri, Milli Məclisin deputatı Məlahət İbrahimqızının moderatorluğu ilə panel müzakirələr şəklində davam edib. O, tələbələrin iştirakı ilə auditoriyada müzakirə olunan bugünkü aktual mövzunun gənclər üçün vacib olduğunu vurğulayaraq, Qərbi Azərbaycana qayıdış prosesində də ən öndə gənclərin gedəcəyini qeyd edib.

Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Azərbaycan Dövlət Pedaqoji Universitetinin prorektoru Mahirə Hüseynova Qərbi Azərbaycanda yaşayan həmyerlilərimizin çətinliklərə baxmayaraq, həmin dövrdə milli kimliyi, dilimizi və dini dəyərləri qoruyub saxlaya bildiklərini qeyd edib. O, qadınların mədəni maarifimizə mühüm töhfələr verdiklərini deyib və bu sahədə seçilən qadınlardan söz açıb. Çıxışının sonunda tarixi torpaqlara qayıdışa inamını ifadə edib.

Qərbi Azərbaycanda böyük mədəni irsin olduğuna diqqət çəkən Qərbi Azərbaycan İcmasının İdarə Heyətinin üzvü, Azərbaycan Memarlıq və İnşaat Universitetinin rektoru Gülçöhrə Məmmədova, bu irsin böyük hissəsinin dağıdıldığını deyib. İrəvanda yerləşən memarlıq irsi nümunələri haqqında məlumatları diqqətə çatdırıb, bu istiqamətdə xüsusi tədqiqatların aparılmasına ehtiyac olduğunu, bu abidələrin dünya mədəni irs siyahısına salınacaq abidələr olduğunu bildirib.

Millət vəkili Mehriban Vəliyeva çıxışında vurğulayıb ki, qadınlar əsrlər boyu milli kimliyin qorunub saxlanmasında və nəsillərə ötürülməsində mühüm rol oynayıblar. Vətən müharibəsinin qəhrəman oğullarını da vətən sevgisi, milli ruh və tarixi yaddaşla yetişdirən məhz analar olub. Onun sözlərinə görə, bu fakt bir daha göstərir ki, tarixi yaddaşını yaşadan xalq milli kimliyini itirməz və öz torpaqlarından heç vaxt vaz keçməz.

Bakı Dövlət Universitetinin hüquq elmləri üzrə elmlər doktoru, Qərbi Azərbaycan İcmasının Hüquq Komissiyasının sədri Zahid Cəfərov beynəlxalq təcrübədə sülh və inteqrasiya prosesinin əsas prinsiplərindən danışıb. O, həmçinin vurğulayıb ki, sülh dialoqlarında qadınların iştirakı dünya praktikasında mühüm amil kimi qəbul olunur.

Tədbirin davamında Kanadadan ictimai fəal Lalin Həsənova və Türkiyədən vəkil Eda Günday video formatında çıxış ediblər. Bildirilib ki, qadınların iştirakı münaqişələrin həllində dialoqun səmərəliliyini artırır və qəbul edilən qərarların uzunmüddətli şəkildə icrasına, ictimai iştirakçılığa mühüm töhfə verir.

Konfrans müzakirələrlə davam edib.

# 12 dekabr - Ulu Öndər Heydər Əliyevin anım günü

**Azərbaycan xalqı 12 dekabr tarixini Ümummilli Lider Heydər Əliyevin anım günü kimi dərin ehtiram və böyük minnətdarlıq hissi ilə yad edir. Bu tarix təkcə xatırlama mərasimi deyil, Azərbaycan dövlətçilik modelinin ideya əsaslarını, müasir inkişaf konsepsiyasının kökünü və milli siyasi ideologiyanın formalaşma prosesini elmi müstəvidə qiymətləndirməyə imkan yaradan mühüm bir gündür.**



Dövlətçilik tarixi göstərir ki, hər bir xalqın taleyində milli təhlükəsizlik, dövlət quruculuğu, sosial-siyasi sabitlik və inkişaf kimi amillərdə həlledici rol oynayan nadir şəxsiyyətlər olmuşdur. Azərbaycan xalqı üçün belə bir lider, sözün əsl mənasında xilaskar missiyasını öz üzərinə götürən Heydər Əliyev olmuşdur.

Ulu Öndərin çoxşaxəli siyasi irsi, dövlət idarəçiliyi təcrübəsi, milli məfkurə formalaşdırmaq bacarığı, strateji uzaqgörənliyi və xalqla dövlət arasında etimad mühitini yaratmaq qabiliyyəti müasir Azərbaycan elmi tərəfindən müxtəlif sferalarda - politologiya, tarixşünaslıq, idarəetmə nəzəriyyəsi, milli təhlükəsizlik elmləri və humanitar sahələrdə sistemli şəkildə araşdırılır. Bu baxımdan Heydər Əliyev irsinin tədrisi və elmi tədqiqi, xüsusilə də pedaqoji ənənələri ilə seçilən Azərbaycan Dövlət Pedaqoji Universiteti üçün xüsusi əhəmiyyət daşıyır. Heydər Əliyev yalnız böyük siyasi lider deyil, həm də dövlətin ideoloji dayaqlarını gücləndirən və milli şüuru yüksəldən müstəsna şəxsiyyətdir. Onun Azərbaycana rəhbərlik etdiyi dövrlər ölkəmizin tarixində ziddiyyətli proseslərin, mürəkkəb geosiyasi şərtlərin və böyük dəyişikliklərin yaşandığı mərhələlərlə üst-üstə düşür. Buna baxmayaraq, həmin dövrlərin hər birində Ulu Öndər yüksək intellekti, siyasi iradəsi, çevik strateji düşüncəsi və xalqına bağlılığı ilə ölkəni təhlükələrdən çıxarmağı bacarmışdır.

1969-1982-ci illər Azərbaycan tarixində "inkişaf və dirçəliş dövrü" kimi səciyyələndirilir. Heydər Əliyevin həmin illərdə iqtisadiyyatın strukturunu yeniləməsi, sənaye və kənd təsərrüfatını canlandırması, milli kadr siyasəti yürütməsi və sosial infrastrukturun qurulmasına verdiyi töhfələr respublikanın inkişafını təmin etmişdir. Bu dövr həm də Azərbaycan elminin, mədəniyyətinin, təhsilinin yüksəlişi ilə yadda qalmışdır. ADPU kimi elmi-təhsil müəssisələri də həmin illərdə keyfiyyətli inkişaf mərhələsinə keçmişdir.

XX əsrin sonlarında Azərbaycanın qarşı-qarşıya qaldığı siyasi parçalanma, silahlı toqquşmalar, iqtisadi tənəzzül və dövlət institutlarının iflic vəziyyəti respublikanın mövcudluğunu sual altına almışdı. 1993-cü ildə Heydər Əliyevin xalqın təkidi ilə hakimiyyətə qayıdışı dövlətçilik təfəkkürünün yenidən bərpası, milli təhlükəsizliyin təmin edilməsi və müstəqilliyin qorunması baxımından tarixi dönüş nöqtəsi oldu. Xüsusilə "Əsrin müqaviləsi" adlanan neft strategiyası Azərbaycanın iqtisadi təhlükəsizliyinin, sosial rifah modelinin və beynəlxalq əməkdaşlıq əlaqələrinin təməl prinsipi kimi bu gün də öz aktuallığını qoruyur. Elmi ədəbiyyat bu mərhələni "müstəqilliyin möhkəmləndirilməsi dövrü" kimi qiymətləndirir.

Ulu Öndərin dövlətçilik fəaliyyətində milli sərhədlərin qorunması, sərhəd infrastrukturunun yaradılması və təhlükəsizlik strategiyasının formalaşdırılması xüsusi bir istiqamət təşkil edirdi. Onun uzaqgörənliyi ilə sərhəd xidməti müasir standartlara uyğunlaşdırıldı, hüquqi baza formalaşdırıldı və dövlətin suverenliyinin qorunması üçün etibarlı mexanizmlər yaradıldı.

Bu siyasətin davamı olaraq Azərbaycan bu gün regionun ən güclü ordu və təhlükəsizlik sistemlərindən birinə malikdir. Bu möhkəm təməllər 2020-ci il Vətən müharibəsində özünün real nəticəsini göstərdi. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi altında əldə olunan tarixi zəfər Heydər Əliyevin yaratdığı dövlətçilik kursunun məntiqi davamı və parlaq nəticəsi kimi dəyərləndirilir.

Bu gün ölkənin sosial-iqtisadi inkişafı, beynəlxalq aləmdə artan nüfuzu, modern idarəçilik sistemi, multikultural və humanitar siyasəti Ulu Öndərin müəyyən etdiyi strategiyanın yeni mərhələdə daha geniş miqyasda həyata keçirildiyini göstərir. Prezident İlham Əliyevin rəhbərliyi, Birinci vitse-prezident Mehriban Əliyevanın humanitar sahədə reallaşdırdığı təşəbbüslər müasir Azərbaycanın intellektual, sosial və mədəni mühitini daha da zənginləşdirir.

Azərbaycan Dövlət Pedaqoji Universiteti Ulu Öndərin elmə, təhsilə və maarifçiliyə verdiyi yüksək dəyəri daim öz fəaliyyətinin əsas istiqamətlərindən biri kimi qəbul edir. Universitetdə Heydər Əliyev irsinin tədqiqi və tədrisi sistemli şəkildə aparılır; tələbələrin milli-mənəvi dəyərlər ruhunda yetişdirilməsi, dövlətçilik şüurunun formalaşdırılması və vətənpərvərlik ideyalarının aşılanması prioritet məsələlərdəndir.

12 dekabr - Heydər Əliyevin anım günü Azərbaycan xalqı üçün böyük mənəvi əhəmiyyət daşıyan bir gündür. Bu tarix, Ulu Öndərin dövlət quruculuğu, milli təhlükəsizlik, siyasi sabitlik, iqtisadi inkişaf və məfkurə formalaşdırılması sahələrində qoyduğu möhkəm təməllərin yad edilməsi ilə yanaşı, həm də müasir Azərbaycanın hansı əsaslar üzərində yüksəldiyini anlamaq baxımından böyük dəyərə malikdir.

Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının yaddaşında müdrik lider, qətiyyətli dövlət xadimi, dərin zəkaya malik strateq və milli birliyin simvolu kimi yaşayır. Onun irsi gələcək nəsillər üçün dövlətçilik dərsidir və ADPU kimi elm-təhsil ocaqlarının bu irsin öyrənilməsi və təbliği istiqamətində gördüyü işlər milli ideoloji sistemin möhkəmləndirilməsinə mühüm töhfədir.

Allah rəhmət eləsin.



***Bəhman Hüseynli,***
***ADPU-nun Heydər Əliyev Mərkəzinin mütəxəssisi***

# "Sözlə danışan sevgi: 80 ilin Vahid Əzizi" adlı ədəbi-bədii tədbir təşkil olunmuşdur

**ADPU-nun Filologiya fakültəsi,Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi və "Meh" ədəbi dərnəyinin birgə təşkilatçılığı ilə Xalq şairi Vahid Əzizin 80 illik yubileyinə həsr olunmuş "Sözlə danışan sevgi: 80 ilin Vahid Əzizi" adlı ədəbi-bədii tədbir təşkil olunmuşdur.**



Tədbirdə ADPU-nun professor-müəllim heyəti və tələbələr, ədəbiyyat və mədəniyyət xadimləri, eləcə də poeziyasevərlər iştirak etmişlər.

ADPU-nun rektoru professor Cəfər Cəfərov, Beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynova, Ədəbiyyat kafedrasının dosenti Qüdrət Umudov, professor Firudin Cəlilov, professor Vidadi Orucov, kimya üzrə fəlsəfə doktoru Nazir Əhmədli çıxışlarında şairin Azərbaycan ədəbiyyatındakı müstəsna xidmətlərindən, onun zəngin və çoxşaxəli yaradıcılıq yolundan bəhs etmişlər.

Tədbir çərçivəsində fakültənin nəzdində fəaliyyət göstərən "Meh" ədəbi dərnəyinin üzvləri tərəfindən Vahid Əzizin şeirləri səsləndirilmiş, yaradıcılığına həsr olunmuş ədəbi kompozisiyalar nümayiş etdirilmiş, tələbələrin ifasında musiqi və rəqslər təqdim olunmuşdur.

Tədbirin sonunda Xalq şairi Vahid Əzizə yaradıcılığı, poeziyaya münasibəti və ədəbi yolunun müxtəlif mərhələləri ilə bağlı suallar verilmişdir.

# “Missiya” adlı monoqrafiyanın təqdimatı keçirilmişdir





***Prezident Kitabxanasında görkəmli filoloq, filologiya elmləri doktoru, professor Mahirə Hüseynovanın “Missiya” adlı monoqrafiyasının təqdimatı keçirilmişdir.***

Tədbirdə ziyalılar, elm xadimləri, həmçinin dövlət və ictimaiyyət nümayəndələri iştirak etmişdir. AMEA-nın Riyaziyyat və Mexanika İnstitutunun direktoru, professor Misir Mərdanov, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru, professor Cəfər Cəfərov, Bakı Slavyan Universitetinin rektoru Anar Nağıyev, ABŞ Şimali Karolina Universitetinin professoru Əli Əsgərov, Qərbi Azərbaycan İcması İdarə Heyətinin sədri, millət vəkili Əziz Ələkbərli, millət vəkilləri Qaya Məmmədov, Məlahət İbrahimqızı, Azərbaycan Respublikası Auditorlar Palatasının sədri, professor Vahid Novruzov çıxış edərək kitabın elmi əhəmiyyətini, Ulu Öndərin strateji rolunun əsərdə əks olunmasını və onun ideallarının bugünkü və gələcək nəsillər üçün əhəmiyyətini vurğulamışlar.

Tədbirin sonunda kitabın müəllifi ADPU-nun Beynəlxalq əlaqələr üzrə prorektoru professor Mahirə Hüseynova çıxışında kitabın ideya mənbələrindən, araşdırma metodlarından və məqsədindən danışmışdır. O, “Missiya”nın Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi, milli dövlətçiliyimizin formalaşması və xalqın mənəvi, mədəni dirçəlişi yolunda ömrünü və fəaliyyətini həsr etmiş Ulu Öndər Heydər Əliyev irsini dərindən tədqiq etdiyini qeyd etmişdir. Kitabda Heydər Əliyevin həyat yolu, dövlətçilik fəaliyyəti, elm, maarif, mədəniyyət və dil siyasətindəki xidmətləri sistemli şəkildə təhlil olunmuşdur.

Sonda professor Mahirə Hüseynova “Baxış bucağı: Heydər Əliyev və strateji azərbaycançılıq”, “Heydər Əliyev və Azərbaycan dilinin inkişaf konsepsiyası” və “Ümummilli liderin ədəbiyyat strategiyası” adlı kitablarını Prezident Kitabxanasına hədiyyə etmişdir.

# *Professor Mahirə Hüseynova:*
# “Qərbi Azərbaycan folkloru tarixi yaddaşımızın canlı daşıyıcısıdır”



***26 dekabr 2025-ci il tarixində Azərbaycan Milli Elmlər Akademiyasının Folklor İnstitutu, Azərbaycan Dövlət Pedaqoji Universiteti və Qərbi Azərbaycan İcmasının birgə təşkilatçılığı ilə “Qərbi Azərbaycan folkloru: problemlər və perspektivlər” mövzusunda II Respublika elmi-praktik konfransı öz işinə başlayıb.***

Konfransın açılış mərasimində Azərbaycan Dövlət Pedaqoji Universitetinin beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova açılış nitqi ilə çıxış edib. O, iştirakçıları salamlayaraq tədbirin elmi, ictimai və mədəni əhəmiyyətindən bəhs edib, universitetin bu zalında illər boyu mühüm elmi və mədəni tədbirlərin keçirildiyini, həmin məkanın elmi ənənələrin formalaşmasında xüsusi rol oynadığını vurğulayıb.





Çıxışında konfransın “Qərbi Azərbaycan” mövzusu ətrafında təşkil olunmasının xüsusi əhəmiyyət daşıdığını qeyd edən professor Mahirə Hüseynova bu mövzunun Azərbaycançılıq ideologiyasının mühüm tərkib hissəsi olduğunu bildirib. O, Qərbi Azərbaycan ərazilərinin Azərbaycan xalqının tarixi yaddaşında, mədəni kimliyində və mənəvi dünyasında tutduğu yerə diqqət çəkib.

Professor Mahirə Hüseynova Prezident İlham Əliyevin 24 dekabr 2020-ci il tarixli bəyanatını xatırladaraq, Azərbaycanın dədə-baba torpaqlarına qayıdış ideyasının tarixi və siyasi baxımdan strateji əhəmiyyət daşıdığını qeyd edib. O bildirib ki, Qarabağın azad olunması Azərbaycanın öz ərazi bütövlüyünü bərpa etməsinin bariz nümunəsidir və bu mübarizə heç vaxt başqa xalqların torpaqlarına iddia məqsədi daşımayıb.

“Qarabağ azad olundu, biz artıq öz torpaqlarımıza qayıtmışıq. Bizim mübarizəmiz öz torpaqlarımızı geri almaq üçün idi. Biz sülh tərəfdarıyıq və bu gün ən böyük arzumuz dədə-baba torpaqlarımıza – Qərbi Azərbaycana qayıtmaqdır”, – deyə professor Mahirə Hüseynova vurğulayıb.

Çıxışında ermənilər tərəfindən türklərin tarixi torpaqlarından deportasiya edilməsinin ağır sosial və mədəni nəticələrinə toxunan alim Azərbaycan xalqının öz mədəniyyətinə, folkloruna və etnoqrafik irsinə bağlılığını xüsusi qeyd edib. Onun sözlərinə görə, Qərbi Azərbaycan folkloru Azərbaycan mədəniyyətinin ayrılmaz tərkib hissəsi olmaqla yanaşı, xalqın tarixi yaddaşını yaşadan əsas mənbələrdən biridir.

“Qərbi Azərbaycan folkloru zəngin bir xəzinədir. Xüsusilə Dərələyəz mahalı öz yallıları, milli geyimləri, maddi-mədəniyyət abidələri və el şairlərinin yaradıcılığı ilə sanki canlı etnoqrafik muzeyi xatırladır. Təəssüf ki, vaxtında informatorlardan bu folklor nümunələrini yetərincə toplaya bilməmişik. Lakin bu, tarixi həqiqətlərin dəyişmədiyini və yurd həsrətinin xalqın yaddaşında daim yaşadığını göstərir”, – deyə professor Mahirə Hüseynova bildirib.

Sonda professor Mahirə Hüseynova bu cür elmi-praktik konfransların xüsusilə gənc tədqiqatçılar üçün mühüm əhəmiyyət daşıdığını vurğulayıb, Qərbi Azərbaycan folklorunun türk xalqları kontekstində, türk dilləri aspektindən sistemli şəkildə araşdırılmasının vacibliyinə diqqət çəkib. O, konfransın işinə uğurlar arzulayaraq iştirakçılardan yeni elmi yanaşmalar və sanballı töhfələr gözlədiyini bildirib.

# Qərbi Azərbaycanın Böyük Qarakilsə (indiki Kirovakan) şəhərindən deportasiya olunduğumuz gün...

**Böyük Qarakilsə İrəvan quberniyasının Aleksandropol qəzasının Pəmbək bölgəsində kənd olmuşdur. 1930-cu il sentyabrın 9-da yaradılıb. 1935-ci il yanvarın 3-nə qədər Böyük Qarakilsə (1930-1935), 1935-ci ildən 1993-cü ilə qədər Kirovakan, 1993-cü ildən etibarən isə Vanadzor adlandırılmışdır. Toponimlərin zaman-zaman dəyişdirilməsi tarixi saxtalaşdırmaq niyyətinə düşən mənfur ermənilərin məkrli siyasəti olmuşdur.**



*Zemfira İsaxan qızı Abbasova ADPU-nun Filologiya fakültəsinin dekan müavini, filologiya üzrə fəlsəfə doktoru*

Tarixi faktlara əsaslanaraq deyə bilərik ki, toponim alban mənbədinin adı əsasında yaranmışdır. Həmin ərazidə yerləşən kilsə qara daşdan tikildiyi üçün Qarakilsə adlanmış və sonra da Qarakilsə toponimə çevrilmişdir. "Böyük" sözü fərqləndirici əlamət bildirir. Relyef əsasında yaranan mürəkkəb quruluşlu toponimdir. Böyük Qarakilsə - Qərbi Azərbaycanın üçüncü böyük şəhəri hesab olunur. Bu şəhərin çoxsaylı kəndləri və qəsəbələri var. Heyrətamiz gözəlliyinə və füsünkar mənzərəsinə görə 1988-ci ilə qədər soydaşlarımızın istirahətindən zövq aldığı kurort zona ilə məşhur idi. 1988-ci ilə qədər Böyük Qarakilsə şəhəri çiçəklənmə dövrünü yaşayırdı. Əhalisi təxminən 173 min nəfərə çatmışdı. Əhalinin böyük əksəriyyətini Azərbaycanlılar təşkil etdiyinə görə ermənilər daim öz məkrli niyyətlərini irəli sürməyə davam etdirirdilər. Həmin ildən mənfur ermənilərin zülmkarlığı nəticəsində şəhər və kənd əhalisinin əksəriyyəti kütləvi qətllərin qurbanı olmuş və öz dədə-baba yurdlarından deportasiya olunaraq, qaçqınlıq həyatı yaşamalı olmuşdular. Kütləvi qətllər, talanlar və etnik təmizləmələr həyata keçirən ermənilər tarixin saxtalaşdırılmasına, dini-mədəni irsin erməniləşdirilməsinə nail olmağa çalışırdılar. 1988-90-cı illərdə 250 mindən çox azərbaycanlının öz doğma yurd-yuvalarından təmizlənməsi - ermənilərin türklərdən təmizlənmə kimi böyük bir plan mərhələsi olmuşdur. Mədəni irsimizi məhv edərək böyük Ermənistan yaratmaq arzularını gerçəkləşdirmək niyyətində olmuşlar. 27 noyabr 1988-ci ildə Kirovakan şəhərində at oynadan daşnak terror qrupu qəfil, heç gözləmədiyimiz bir anda yaşadığımız əraziyə soxuldu. Evdə sakit oturmuşduq. Birdən-birə küçəni lərzəyə gətirən yanğınsöndürən maşınlarının bağırtılı xəbərdaredici səsləri hər şeyi alt-üst etdi. Yanğınsöndürənlərin siqnallarının səsi hələ də qulaqlarımdadır - sanki bir təhlükəni deyil, bütün həyatımızın dağılmaq xəbərini verirdi. Hər şey bir anda dəyişmişdi. Qəfil yanğınsöndürən maşınlarının səsi eşidiləndə insanlar adətən qorxu və narahatlıq hissi keçirir. Bu səslər beynimizə "təhlükə var, buradan çıxmalısan" mesajı verirdi. Həmin gün evimizdə sakit oturduğumuz halda bu səslərin birdən-birə eşidilməsi ailəmizdə dərhal qərar verilməsinə səbəb oldu: evi tərk etmək və təhlükədən uzaqlaşmaq. O səs sanki qəlbimizin içinə qədər işləyən bir titrəyiş idi - fəlakətin yaxınlaşdığını xəbər verən qara bir carçı kimi....

Nəyin baş verdiyini anlamırdıq. Evimizdə hər kəs gözlənilməz qorxunun içində idi. Bir-birimizin üzünə baxırdıq. Elə bil taleyin özü "qalmaq olmaz" deyə bir hökm oxumuşdu. Evdən götürdüyümüz tələsik əşyalar və bir də hazırlıqsız dağlara doğru üz tutmaq. Yol uzandıqca qar daha bərk yağırdı. Dağlara tərəf qalxdıqca külək sanki üzümüzə şillə kimi dəyir, dərimizi kəsirdi. Hərdən arxadan inilti, uşaq ağlaması, qadınların dərin nəfəs səsləri eşidilirdi. Ayaqlarım o qədər donmuşdu ki, daha haraya getdiyimizi hiss etmirdim. Bizim hazırlıqsızlığımız təkcə geyim, ərzaq, yol azuqəsi ilə bağlı deyildi. Ən çox qəlbimizin hazırlığı yox idi. İnsan öz evindən necə birdən ayrılıb gedə bilər? Bəlkə də ona görə ayaqlarım donmuşdu - bədənim irəli getsə də, içim o ocaqda qalmışdı, yerimizdən qoparılmışdıq. Amma heç kim geri dönməyi düşünmürdü. Biz özümüzü qorumaq üçün gedirdik. O gün biz təkcə bir qış yoluna çıxmadıq. Biz yüz illərin yaddaşını çiynimizə alıb getdik. O an anladıq ki, insan evini tərk edəndə təkcə daşdan-divardan yox, öz həyatının bir parçasından uzaqlaşmış olur. Doğma yurd-yuvamızı, illərin xatirələri hopmuş divarları, uşaqlıq qoxusu gələn həyəti arxada qoyduq. Amma yenə də dağın ətəyinə çatanda hər birimiz gizlicə dönüb o dumana bürünmüş kəndə son dəfə boylandıq. Evimiz orda idi - sanki bizimlə danışırdı. Amma biz artıq ondan uzaq idik. Çünki bilirdik: bir dəfə baxsaq, geri dönmək istəyinə tab gətirə bilməyəcəyik. O gün təkcə bir qışı deyil, bütün ömrün köhnə mövsümünü yaşayaraq çıxıb gedirdik... Amma, ürəyimizdə aparmalı olduqlarımız daha ağır idi - qorxu, kədər, narahatlıq, bir də bilinməyən sabah. Arxaya dönüb baxmağa cəsarət etmirdik. Biz getdik... amma o gün bizim içimizdə heçnə getmədi. O ruhumuzda donan bir qar mövsümü başladı - hələ də əriməyən hələ də içimizdə yaşayan bir qar mövsümü...

Baş verən ən ağır zərbələrdən biri də kəndimizdə yaşayan 14-15 nəfərin amansız şəkildə qətlə yetirilməsi olmuşdur. Belə hadisələr təkcə fiziki itki deyil, həm də bütün bir toplum üçün dərin psixoloji, sosial və mədəni travmadır.

Daşnak terror qrupu Bayramov Qəribi (evindən çıxmadığına görə) vəhşicəsinə qətlə yetirmişdi. Xaçaturyan qardaşları Hüseynova Leylini əzabla qətlə yetirib. Vanesyan Samvelin terror qrupu İsgəndərov Mehralını, arvadı Xanımı və 16 yaşlı oğlu--Alimi vəhşicəsinə qətlə yetirmişdi. Bundan sonra hər üçünü parça-parça doğramışlar. Digər terror qrupları 1924-cü il təvəllüdlü Əliyev Abdullanı, Məmmədov Süleymanı, Alıyev Əhmədi evlərini tərk etmədiklərinə görə vəhşicəsinə qətlə yetirdikdən sonra körpünün üstündə yandırmışlar. Beləliklə, kənd əhalisini ölümlə təhdit edərək doğma ev-eşiyini tərk etməyə məcbur etmişlər. Evini tərk edib dağlara sığınmalı olmuş ailələr üçün bu cür ölüm xəbəri qaçqınlıq hissini ağırlaşdırdı. Yaxınlarımızın itkisini eşitmək, insan həyatına yönəlmiş zorakılığın dəhşətini görmək ümumi yaddaşımda faciə kimi qalmışdır. Bu cür travmalar silinməzdir. Yaddaşımda psixoloji sarsıntı yaratmışdır. Elm bunu "ev-yurd" itkisi və ya məkan bağlılığının qırılması adlandırır. Uca Rəbbim heç bir bəndəsini çarəsiz qoymasın. 1918-ci ildə 120 nəfər, 1988-ci ildə yenə bu kənddə 15 nəfər yandırılıb məhv edilmişdir.

Erməni saxtakarlığı və yalan üzərində qurulan tarixləri- vandalizmin ən iyrənc formasıdır. Azərbaycanlılara məxsus məbədgahları, ziyarətgahları tamamilə darmadağın etməklə saxtakar əməllərini üzə çıxarmağa nail olmuşlar. Qəbirstanlıqları məhv edən - o mənfurlar gün gələcək cavab verməli olacaqlar! Azğınlaşan erməni millətçilərinin qeyri-insani əməllərinin davamına son qoymalarının vaxtıdır. Bu tarixi faciəni yaşayanlardan, eyni zamanda qaçqınlıq həyatına məruz qalanlardan biri kimi deyə bilərəm ki, yurd həsrəti ilə yaşamaq insan ömrünə ağır günlər yaşadır. Yüz illərin ərzində aparılan məkrli siyasət 1988-ci ildə başlanan, Milli münasibətlər ruhunda cərəyan edən hadisələr günbəgün dərinləşməyə başladı. 1988-ci ildə bünövrəsi qoyulan millətçilik siyasəti nəticəsində minlərlə soydaşımız əsrlərdən bəri yaşadıqları öz doğma yurdlarını - Türk-Oğuz torpaqlarını tərk etmək məcburiyyətində qaldı. Mənfurlar 250 minə yaxın soydaşımızı öz ata-baba yurdlarından zorla qovub çıxartdılar. Başımıza gələn faciənin köklərini araşdırsaq, görərik ki, faciələrin kökləri gedib əsrin əvvəllərinə çıxır. Qərbi Azərbaycanda (İndiki Ermənistan adlanan bir məmləkətdə) 16-ya yaxın bir mahal olubdur və bu mahalların əzəli və əbədi sakinləri Oğuz türkləri olmuşdur. Unutmayaq ki, ermənilərin apardığı xəyanətkar siyasətin nəticəsində, onların uzun illər apardığı qanlı mübarizələrin sayəsində həmin torpaqlar zorla alınmışdır. Atalar yaxşı deyib: "Keçmişini bilməyən xalqın gələcəyi də olmur". Lakin Sovet İttifaqı dövründə yeni düz 70-il ərzində keçmişimizi, faciələrimizi öyrənmək, yaddaşlara köçürmək bizlərə yasaq edilirdi. Elə ona görə də uzun illər xalqımızın başına gətirilən faciələrdən yazmaq, gələcək nəsillərə çatdırmaq imkan xaricində olmuşdur. Müasir dövrdə ölkədə formalaşan daha açıq informasiya mühiti, arxivlərin tədricən əlçatan olması, tarixə, elmi yanaşmaya verilən diqqət, əvvəlki dövrlərdə danışılması çətin olan bir çox faciələrin, kütləvi köçlərin, insan itkilərinin daha obyektiv şəkildə araşdırılması, gələcək nəsillərə çatdırılması mənəvi borcumuzdur. Bu şərait nəticəsində tarixi faktların toplanması, şahid ifadələrinin qorunması, itirilmiş yaddaşın bərpası, gənc nəsillərin məlumatlandırılması, elmi araşdırılmaların aparılması artıq daha sistemli şəkildə mümkündür. Hazırki dövlət siyasətinin əsas istiqamətlərindən biri də tarixi həqiqətlərin elmi əsaslarla öyrənilməsi və gələcək nəsillərə çatdırılmasıdır. Haqq nazilər amma üzülməz... deyərlər! Şübhəsiz ki, gün gələcək gec-tez Böyük Qarakilsə dirçəliş yoluna qədəm qoyacaq. Yurd həsrəti çəkən ata-analarımız, oğul və qızlarımız öz doğma ocaqlarına qovuşacaqlar. Böyük Qarakilsə cəlbedici məkana yenidən çevriləcək.



## Tanıyaq, tanıdaq!

# Toxlucadan gələn səs

***Qərbi Azərbaycanın (indiki Ermənistan) Göyçə gölü ətrafındakı ərazi Göyçə mahalı adlanırdı. Həm ərazisinə, həm də əhalisinin sayına görə İrəvan xanlığının ən böyük mahalı hesab edilən Göyçə mahalında Rusiya-İran, Rusiya-Türkiyə müharibələri nəticəsində 67 kənd dağıdılmış, 17 kəndin adı isə tamamilə unudulmuşdur. 1988-ci ilə qədər azərbaycanlıların kompakt yaşadığı bu tarixi ərazi 1747-1828-ci illərdə İrəvan xanlığının mahalı olmuşdur.***



Yazımızın qəhrəmanının ata yurdu da məhz Göyçə mahalı olmuşdur. Göyçə mahalının Toxluca kəndi. 1991-ci ilə qədər belə adlansa da SSRİ AS RH-nin qərarı ilə kəndin adı dəyişdirilərək Draxtik (Cənnət dərəsi) adlandırılmışdır. Dörd tərəfi dağlarla əhatə olunmuş bir ərazidə yerləşən Toxluca sözün əsl mənasında cənnətdir. Qəhrəmanımızın babası (Kərbəlayi) Dostumalı İsayev Toxluca kəndində anadan olmuş, uzun illər burada yaşamışdır.

Atası İsayev Ziraddin Dostumalı oğlu Göyçə mahalının Toxluca kəndində anadan olmuş, 7-ci sinfə qədər burada oxumuşdur. Qazax Müəllimlər Seminariyasını bitirdikdən sonra Gəncə Dövlət pedaqoji İnstitutunun Fizika-riyaziyyat fakültəsinə daxil olmuş, buranı fərqlənmə diplomu ilə bitirmişdir. Çox savadlı gənc olduğundan onu institutda müəllim kimi saxlamaq istəmişlər, lakin atası Kərbəlayi Dostumalı buna razılıq verməmişdir. Və bircə övladı olan Dostumalı kişi oğlunun təhsil həyatının, iş həyatının Gəncə ilə davam etdiyini görüb, onunla birgə Gəncədə yaşamağa başlamışdır.

Gənc müəllim Ziraddin Gəncə şəhər 4 saylı internat tipli uşaq evində müəllim kimi işləməyə başlayır. Təqaüdə çıxana qədər bu məktəbdə işləyən Ziraddinin ailə sarıdan da bəxti Gəncədə gətirir. O, əslən Qərbi Azərbaycanın Meğri rayonunun Nüvədi kəndindən olan, lakin Gəncədə məskunlaşmış Kərim bəyin qızı Çimnaz xanımla ailə həyatı qurur. Sonralar dəfələrlə doğma yurdu Göyçəyə gedib-gəlsə də 1987-1991- ci il deportasiyasından sonra bir daha oraya qayıda bilmir.

Haqqında danışacağımız qəhrəmanımız Hüseyn Ziraddin oğlu İsayev 1960-cı il avqust ayının 16-da Gəncə şəhərində anadan olmuşdur. Orta təhsilini Gəncə şəhər Məhəmmədhüseyn Şəhriyar adına 40 saylı tam orta məktəbdə almışdır. Məktəbi bitirdikdən sonra Ukraynaya hərbi xidmətə yollanır (1978-1980). Hərbi xidmətdən qayıtdıqdan sonra daxili işlər orqanlarında polis nəfəri kimi işə başlamışdır. 1986-1990-cı illərdə Minsk Ali Milis Məktəbində təhsil almış, oranı bitirdikdən sonra təyinatı üzrə Dağlıq Qarabağ Muxtar Vilayətinin Xocavənd (əvvəlki Martuni) rayonunda əməliyyat müvəkkili kimi işləməyə başlamışdır. Xidmət etdiyi dövrdə daima fərqlənən Hüseyn İsayev Daxili İşlər Nazirliyinin rəhbərliyi tərəfindən "Milis əlaçısı" döş nişanı ilə təltif edilmişdir.


№ 29 (66) 12-19 oktyabr 2006-cı il

**Daşnaklara qarşı döyüşdüyü üçün axtarışdadır**

*Mediadan məlum olduğu kimi erməni daşnakları bir qrup Azərbaycan vətəndaşları barəsində ölüm hökmü çıxarıb. Həmin siyahıda adları çəkilən əsgər, zabit, nazir, iş adamı və digərlərini biz "Avrotaymıs" olaraq müdafiə edəcəyimizə söz vermişik. Redaksiyamıza daxil olan məktublar arasında Ermənistan Respublikasının həbsli axtarış elan etdiyi (interpol xətti ilə) İsayev Hüseyn Ziraddin oğlunun barəsində məlumatlar paketi xüsusilə diqqətimizi çəkdi.*

Dağlıq Qarabağ Muxtar Vilayətinin Daxili İşlər İdarəsinin rəisi general-mayor Kovalyov 1991-ci ilin yanvar ayında hələ leytenant rütbəsi daşıyan Hüseyn İsayevi Xocavənd Milis Bölməsinin rəisi təyin edir.

Şərəf və ləyaqətlə vətənə xidmət edən Hüseyn İsayev onlarla həmvətənlimizi ölümdən xilas etmiş, yüzlərlə ermənini həbs etmişdir. Xidmətdə olduğu dövrdə mülki əhalinin arxasında durmuş, yerli əhali tərəfindən "qəhrəman" adlandırılmışdır.

Hadisə şahidlərinin dediyinə görə Xocavənd (indiki Martuni) Rayon Milis Şöbəsinin rəisi Valeriy Qabrelyan daşnak partiyasının bir neçə fəal üzvünü həbsdən azad etməsi qarşılığında Hüseyn İsayevə 1 milyon rubl təklif etmişdir. Lakin vətənin ləyaqətli oğlu bu mənfur təklifi rədd etmişdir.

Dustaqlar hər an qaçmağa hazır idi. Sürücü olmadığından sükan arxasında şəxsən özü oturan Hüseyn İsayevi həyati təhlükə gözləyirdi. Mərziliyə qədər olan 30 kilometrlik məsafəni o, mühafizəsiz qət etməli oldu.

Digər bir şahidin dediyinə görə: 1991-ci ilin oktyabr ayında erməni daşnakları Hüseyn müəllimin xidməti maşında olduğunu zənn edərək UAZ markalı maşını atəşə tutmuş, lakin istədiklərinə nail ola bilməmişdilər.

Başqa bir şahid danışırdı ki, bir gün Hüseyn müəllim mundirini qonşuluqda yaşayan milis serjantının çiyninə salaraq onu kabinetinə aparmasını xahiş edir. Və serjant qaçaraq həyəcanla geri qayıdır: "Hüseyn müəllim məni siz zənn edib atəşə tutdular. Ona görə də mundiri otağınıza qoya bilmədim".

Kənd sakinlərinin dediyinə görə Hüseyn müəllim məzuniyyətdə olarkən onun yoxluğundan istifadə edən daşnaklar kənd soveti sədrinin evini yandırmış, kənddə bir çox özbaşınalıqlara səbəb olmuşlar. Kənd camaatı meydana toplaşaraq Hüseyn müəllimin tutduğu vəzifədən azad edilərək Xocavəndə yenidən qayıtmasını tələb edirdi.

Xocavənddə yaşadığı və işlədiyi dövr I Qarabağ müharibəsi illərinə təsadüf edir və o, bu müharibədə iştirak edir. Yurdumuzun vətənpərvər oğlu Hüseyn İsayev daşnaklar tərəfindən beynəlxalq axtarışda olmuş, dəfələrlə təxribatlarla qarşılaşmış, lakin Vətənə xidmətdən bir an belə yayınmamışdır.

1991-ci ilin noyabr ayında Gəncə şəhərinə təyin olunsa da, müharibə dövründə dəfələrlə Ağdam, Xocavənd, Çılxavənd kimi rayonlarda ezamiyyətdə olmuşdur.

1998-ci ilə qədər Gəncə Şəhər Polis İdarəsinin baş əməliyyat müvəkkili vəzifəsində çalışmışdır. Vəzifəsində daima irəliləməyə meyilli olan Hüseyn İsayev 1998-ci ildə Daxili İşlər Nazirliyinin əmri ilə Bakı şəhər İstintaq Təcridxanasına (1 saylı Bayıl Həbsxanası) təyinat alır.

1999-cu il 9 noyabrda Ulu Öndər Heydər Əliyevin sərəncamı ilə istintaq təcridxanaları Azərbaycan Respublikası Ədliyyə Nazirliyinin tərkibinə verilir. Və Hüseyn İsayev 2009-cu ilədək 1 saylı Bakı İstintaq Təcridxanasında əvvəl böyük inspektor, sonra isə şöbə rəisi vəzifəsində çalışır. 2012-ci ildə isə mayor rütbəsi ilə təqaüdə çıxır.

Hazırda təqaüddə olan Hüseyn əminin iki oğul bir qız övladı var. Övladlarını da özü kimi vətənpərvər ruhda böyütmüş, hər ikisini hərbi sahəyə yönəltmişdir.

Atasından dinlədiyi Qərbi Azərbaycan xatirələrindən daima danışan Hüseyn əmi ata yurda qayıdacağı günü səbirsizliklə gözləyir. Və bu günün çox yaxın olduğuna əmindir.



***Aynurə Babayeva,***
***ADPU-nun "Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi"nin mütəxəssisi***

# Dünya şöhrətli kimyaçı alim Məmməd Mustafayev

## *Həyatı və təhsili*



Məmməd Mustafayev 23 oktyabr 1944-cü ildə Ermənistan SSR-in Kalinino rayonunun Evli kəndində anadan olub. 1950-1957-ci illərdə Evli kənd yeddillik məktəbini əla qiymətlərlə başa vurduqdan sonra 1960-cı ildə İlməzli kənd orta məktəbini qızıl medalla bitirmişdir.

1960-cı ildə Azərbaycan Dövlət Universitetinin Kimya fakültəsinə daxil olmuş, daha sonra təhsilini Moskva şəhərində M.V.Lomonosov adına Moskva Dövlət Universitetinin kimya fakültəsində davam etdirmişdir. 1966-cı ildə oranı fərqlənmə diplomu ilə bitirmişdir.

1970-1975-ci illərdə Moskva Dövlət Universitetində aspiranturanı başa vuraraq kimya elmləri namizədi, 1981-ci ildə isə polimerlər kimyası mövzusu üzrə müdafiə edərək kimya elmləri doktoru elmi dərəcəsini almışdır.

## *Əmək fəaliyyəti*

1970-1975-ci illərdə Moskva Dövlət Universitetinin Kimya kafedrasında dosent vəzifəsi ilə əmək fəaliyyətinə başlamışdır. 1975-1983-cü illərdə Moskva Dövlət Universitetinin kimya kafedrasında dosent vəzifəsində çalışıb. 1983-cü ildə Moskva İmmunologiya İnstitutunun Kimya kafedrasında işləyib. 1990-cı ildə Bakı Dövlət Universitetinin üzvi kimya kafedrasında professor vəzifəsini tutub.

## *Elmi-pedaqoji yaradıcılığı*

1994-1997-ci illərdə TÜBİTAK nəzdində Kimyəvi İmmunologiya Laboratoriyasında məsləhətçi, 1997-2002-ci illərdə TÜBİTAK nəzdində Kimyəvi İmmunologiya Laboratoriyasının direktoru işləyib. O, 2004-2007-ci illərdə Türkiyənin Yıldız Texnik Universitetində Kimya və metallurgiya fakültəsinin Biomühəndislik kafedrasının müdiri işləyib.

## *Beynəlxalq elmi-əməkdaşlığı*

1970-1975-ci illərdə SSRİ (Moskva) baş tədqiqat alimi, 1975-1983-cü illərdə Moskva Dövlət Universitetində Kimya Kafedrasının Kimya Laboratoriyasının rəhbəri, 1977-ci il Çexiyada Makromolekulyar Kimya İnstitutunda qonaq alim, 1979-cu il Macarıstanın Ötvaş Universitetində qonaq alim, 1987-1989-cu illərdə Hindistanın Yeni Dehli Milli İmmunologiya İnstitutunda qonaq alim (Kimya proqramının rəhbəri), 1983-1990-cı illərdə Rusiya Federasiyası Moskva İmmunologiya İnstitutunun Kimya kafedrasında Kimya Laboratoriyasının müdiri, Yaponiya Elmi Dəstək Assosiasiyası, Hokkaydo Universiteti və Tokio Texnologiya İnstitutunda qonaq professor (1996-cı il), Yaponiya Sapporo Yaponiya-Fransa Əməkdaşlığı, fəxri qonaq (1999-cu il), ABŞ Frederik Milli Xərçəng İnstitutunda qonaq alim (2001-ci il), Yaponiyanın Hokkaydo Universitetində qonaq alim (2001-ci il), İngiltərə London Viscotek Europe Ltd., qonaq alim kimi (2003-cü il)fəaliyyət göstərmişdir. (Məmməd Mustafayevlə bağlı araşdırmalar davam edir).

***ADPU-Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi***

*Atam - Asif Allahverdiyev 1974-cü ilin payızında, Vedi mahalı, Şidli kəndində ziyalı ailəsində dünyaya göz açıb. Atamgil düz səkkiz qardaş, yeddi bacı olublar. Atam deyir ki, SSRİ dönəmində 10-dan artıq uşaq dünyaya gətirən qadınlar "Qəhrəman ana" adına layiq görülürdü və ona qızıldan medal təqdim olunurdu. Nənəmin də belə bir statusu var. Həmin illərdə Qərbi Azərbaycandakı xəstəxanalarda erməni "həkimləri" türk körpələrini amansızca iynə vurub öldürürdülər. Nənəmin də vaxtilə təzə doğulmuş körpələri qansız erməni "həkimləri" tərəfindən öldürülmüşdü. Atam elə buna görə deyir ki, Gövhər adlı türk həkim anama məsləhət görmüşdü ki, "Uşaqlarınızı xəstəxanada dünyaya gətirməyin. Mən evə gəlib uşaqları müayinə edərəm, amma buraya gətirməyin. Xəstəxanada yaradılan bu şərait türklər üçün çox ağır təhlükədir".*

# Həyata keçməyən arzular...

## Həkim olmaq arzusu ermənilər tərəfindən əlindən alınan atamın xatirələri...



İrəvan Ortapediya İnstitutunda Georgi Xudayeviçin kabinetində atam Asif Allahverdiyev ilə

O vaxtlar müəllimin maaşı böyük bir ailənin dolanışığına yetmirdi. Biz də həyətimizin məhsullarını: armudu, əriyi, şaftalını, gavalını İrəvandakı Ərəbgir bazarında satırdıq. Üzümlərimizi də şərab zavoduna verirdik. Zavodun maşınları üzümləri gəlib qapımızdan aparırdı. 24 baş qoyunumuz, toyuq və cücələrimiz vardı. Onların da yununu, yumurtasını, ətini satırdıq. Bizim camaat çox zəhmətkeş olub. Atam müəyyən xərcləri qarşılasın deyə məktəbdə dərslərini keçib bitirdikdən sonra sovxozda da işləməyə gedirdi. Atam məktəbdə işləyirdi deyə məktəbdə yediklərimin pulunu atam verirdi ona görə pulum cibimdə qalırdı. Mən də qoyunları otarmağa aparanda pulumla özümə şirniyyat və limonad alırdım. Onların dadını indi heçnə vermir.

1984-cü ilin yayında adi bir gün idi. Həmişəki kimi dərsdən qayıtdım və anam məni qoyunlarımızı otarmaq üçün Vedi obasına göndərdi. Olacaqlardan xəbərsiz qoyunları da qabağıma qatıb apardım. Orada qoyunları otlağa buraxdım və ağaca söykəndim. Qarşıdan 3 erməni uşağı yeyin addımlarla mənə yaxınlaşdı və dedilər:

-"Sən burda nə gəzirsən?!"

Sakit bir tonda dedim ki, qoyunları otarmağa gəlmişəm. Bilirdim ki, onların niyyəti qoyunları oğurlamaq idi. Elə həmin vaxt mənə dedilər ki, qoyunları burda qoy, özün də çıx get burdan! Mən onlara qarşı durdum ki, bu qoyunları mənə tapşırıblar. Mən getsəm, qoyunlarımı burda siz oğrulara qoyan deyiləm! Mən qoyunları aparmaq üçün ayağa durdum və aramızda mübahisə başladı. Onlar ağacdan qalın budaqlar qırıb, üstümə yeridilər. Getmək istəyərkən məni itələyib, yerə yıxdılar. Üçü bir yandan sərt və amansız zərbələrlə ayaqlarımdan, qollarımdan və bədən nahiyələrimdən ağacla döydülər və təpiklədilər.

Mən indi başa düşürəm ki, bu qəddarlıq onlara doğulandan aşılanmış bir zəhərdir. Onlar sadəcə uşaqlar deyildilər, gələcəkdə daha da qəddar olacaqlarına əminəm.

O vaxt bədənim elə qısılmışdı ki, onların mənə qarşı əsəblərinin soyumasını gözləməkdən başqa əlacım yox idi. Ağrının təzəliyindən əvvəlcə çox ağrı hiss etmədim. Qoyunları sağ-salamat evə gətirdim. Evə gələndə heç nə demədim ki, evdəkiləri təşvişə salmayım. Məktəbin ilk gününün axşamı - 31 avqustda ayaqlarım çox ağrıyırdı.



Sağda Nənəm Zəhra Allahverdiyeva, solda Gövhər həkim, ortada atam Asif Allahverdiyev İrəvan Ortapediya İnstitutunda

Anama dedim ki, "ana, ayaqlarım çox ağrıyır", anam isə atama dedi ki, "ilk gündən məktəbə getməsin deyə mahnı eliyir, çıxıb getsin dərsinə". 1 sentyabr məni məcbur məktəbə göndərdilər. Məktəbə getdim, amma sinifdə ağrıdan otura bilmirdim. Sinif rəhbərim Musa müəllimə dedim ki, "ayağım ağrıdığı üçün dayana bilmirəm." O isə "ağrıyırdınsa, məktəbə niyə gəlirdin?" -dedi və evə getməyimə icazə verdi. Mən dedim ki, atam əsəbləşər o isə "sinif rəhbəri mənəmsə, mən də icazə verirəm. Evə get dincəl" -dedi. Məktəbdən halsız çıxdım və məişət evinin yanında gözlərim qaraldı. Gözümü açanda evdə idim - atamgil məni evə gətirmişdi. Evdəkilər başımın üstündə təlaşlı gözlərlə mənə baxırdılar. Bədənim büzüşmüşdü, ana bətnindəki kimi. Bədənim yavaş-yavaş şişməyə başladı. Həkimlər çağrıldı, hərəsi bir rəy söylədi, amma nəticəyə gələ bilmədilər. 4-5 gündən sonra anam Gövhər həkimə zəng etdi. O dedi ki, vəziyyət çox kritikdir - təcili yardım çağırıb, Vedi rayon xəstəxanasına gətirin. Mən burdayam, narahat olmayın.

Orada 15 gün koma vəziyyətində qaldım. Söhbətləri eşidirdim, amma başa düşə bilmirdim - çünki onlar ermənicə danışırdılar. Gövhər həkim atamla türk dilində danışanda dedi ki, "Çaresi yokdur, çocuğa çok eziyyet etmeyelim". Sonra üç erməni həkim içəri girdi, məni yoxladılar və dedilər ki, uşağı İrəvana - Ortopediya İnstitutuna aparaq. Gövhər həkimlə atam danışanda mən elə bildim ki, məndən əllərini üzüblər. Məni də iynə vurub öldürəcəklər. Atama dedilər ki, ona aid olan hər şeyi götürsün və evə aparsın. Atam gedən kimi məni təcili yardımla İrəvan Ortopediya İnstitutuna apardılar. Orada milis sorğu-sual aparırdı, amma erməni dilində danışdığından heç nə başa düşə bilmirdim. Baş tibb bacısı, müharibə iştirakçısı Roza Babayevna erməni olmasına baxmayaraq, Azərbaycan dilini bilirdi və milisin dediklərini mənə tərcümə etdi: "Sənə kimsə zərər verib? Bu vəziyyətə düşməyinin səbəbi nədir?" Dedim ki, yaşca məndən böyük erməni uşaqları ayağımdan qalın budaqlarla zərbələr endiriblər. Erməni milisi bu vəziyyətimdən sanki həzz alırdı. "Bizim uşaqlar belə şey etməz" (gülərək dedi). O vaxtlarda erməni zorakılıqları cəzalandırılmırdı, heç bir ölçü götürülmürdü. Mənim məsələmi də belə ört-basdır etdilər. Axı bunların uşağı nədi ki, milisi də nə ola?



Solda atamın xəstəxana dostu Göyçəli Rasif, ortada babam Məhərrəm Allahverdiyev, Sağda atam Asif Allahverdiyev İrəvan Ortopediya İnstitutunda

Növbəti üç il Ortopediya İnstitutunda davamlı yatdım. İlk həkimim, erməni həkimi Svetlana Aramovna, atamdan məni sağaldacağına söz verərək 5.000 rubl aldı. O, bədənimi yardı, dizimin altına dəyən zərbə bədənimə çox ziyan vurmuş, hər iki ayağımın damarları zədələnmiş, iltihab yaranmışdı. Bədənimi gipsə qoydular. Mən,anam və Gövhər həkim şəkil çəkdirdik. Mən çəliklə belə ayaq üstə dura bilmirdim. Anam və Gövhər həkim məni belimdən tutmuşdular ki, yıxılmayım. Həm qıdıqlanırdım, həm də iynələrin təsirindən üzümdə qəribə gülüş yaranmışdı. Sonra bizi evə yola saldılar və bir ay sonra yaxşı olacaq dedilər. Evdə heç iki gün dözə bilmədim. Yanıma gələn qohumların gətirdiyi şirniyyatları özümdən balaca bacı-qardaşlarıma verirdim ki, bədənimdəki gipsi kəsib açsınlar. Gips kəsiləndən sonra göründü ki, qarınımda və bütün bədənimdə yenə iltihab əmələ gəlmişdi. Bu dözülməz ağrı məni çökdürmüşdü. Valideynlərim bunu görüb, dəhşətə gəldilər. Dərhal məni yenidən Ortopediya İnstitutuna apardılar. Orada anam Svetlana Aramovnayla dalaşdı: "Sən demişdin ki, hər şey yaxşı olacaq...mənim balam sağalacaq amma uşağımın bədəni əvvəlkindən iki qat artıq şişib." Məni yenidən əməliyyat etdilər - qolumu, ayağımı, qarnımı yardılar. Bütün bədənim həmçinin sümüklərim iltihabdan zərər görmüşdü. Məni tək palataya yerləşdirdilər, ağrıdan ana sözündən başqa söz deməyə gücüm yox idi. Orada eyni vaxtda yezdi kürdü öz qızına görə orda yatırdı. O Azərbaycan dilini bilirdi. O anama demişdi ki, buranın baş həkimi Georgi Xudayeviç yezdi kürdüdür. Svetlana sizi aldadıb, o palata həkimidir, baş həkim yox. Ondan pulunuzu geri istəsəniz, uşağınıza iynə vurub öldürəcək, çox qəddar adamdır. Burda türkləri sağ çıxartmırlar. Sən demə kürdlər "ana"ya "ane" deyirlərmiş. Bu sözü eşidən baş həkim anamdan soruşdu: "Sizin millətiniz nədir?" bu uşağın "ane" deməyindən bildim ki, kürd uşağıdır. Ağrıdan nəfəsim çatmırdı deyə sözlərim ağzımdan başqa cür çıxırdı. Birdəfəyə 6-7 növ ağrıkəsici vururdular deyə həm ağrıyır, həm dərmanın təsirindən gülür, həm də nə dediyimi bilmirdim. O həkim anama inamverici tərzdə dedi ki, bu uşağı 3 il müddətinə təmənnasız sağaldacağam, amma siz Svetlanaya verdiyiniz pulu geri istəməyin. Mən burada olmasam o, uşağı öldürəcək. Damarlarındakı iltihab sümüklərində çürümə meydana gətirib, ona görə ildə bir dəfə əməliyyat olmalıdır ki, sümüklərin vəziyyətinə baxaq.

Orada Göyçə mahalından Rasif adında bir oğlan da var idi. Ermənilər onu da döyürdü deyə, gəlib mənim otağımda otururdu ki, onu döyməsinlər.

Baş həkim mənə üç il ərzində xüsusi qulluq göstərdi. Bir gün mən dəstəksiz həkimin kabinetinə gəlmişdim. Orada mənim kimi uşaqlar fizioterapiya alırdılar. Mən heç fizioterapiya almadan düppədüz yerimişdim, hamı heyrət içində idi. Həkim məni görüb, gözləri doldu və məni qucaqladı. Üç illik əziyyət bəhrəsini verməyə başlamışdı. Həkim ailəmə şad xəbər verdi ki, Asif dəstəksiz ayağa durdu! Onlar telefonda elə ağladılar ki, mən də ağladım. Ailəm həkimə çoxlu hədiyyələr, paylar gətirdi, ona necə təşəkkür edəcəklərini bilmirdilər. Sevinclərinin həddi-hüdudu yox idi. Mən həkimin yanında oturdum, o əlini çiynimə qoydu. Biz elə orda şəkil çəkdirdik. Həkimim üç ildən sonra məni ermənilərdən ayırıb, öz hesabına Yefbatoriyaya (Senferopola) göndərdi. Altı ay ərzində tam sağaldım və Vediyə - evimizə qayıtdım.

Məktəb yenidən açıldı. Uşaqlar sinif-sinif düzülmüşdü, mən də öz sıramızda dayanmışdım. Birdən məni durduğum sıradan çıxartdılar. İrəvandan maarif şöbəsindən Məhərrəm Haqverdiyev yeni tədris ili münasibətlə məktəbimizə gəlmişdi. Dörd il xəstəxanada yatdığım üçün onlar aşağı siniflərlə oxumalı olduğumu dedilər. Atam dayanıb baxırdı. Mən imtina etdim və dedim ki, "ya öz yoldaşlarımla oxuyacağam, ya da ümumiyyətlə oxumayacağam". Maarif şöbəsinin müdiri soruşdu: "Sən kimsən ki, imtina edirsən? Niyə yenidən oxumaq istəmirsən?" Dedim ki, "Mən arzusu həkim olmaq olan bir uşaq idim. Neynim ki, düşmən zərbəsinə tuş gəldim. Onsuz 4 ilimi xəstəxana palatalarında itirmişəm, mənim arzularım da ürəyimi iynə kimi deşir. (dolu, məsum gözlərlə Məhərrəm müəllimə baxaraq) Nə olar ki, öz sinfimdə otursam?"- dedim. Məktəb müəllimləri də bildirdilər ki, o şagird məktəbin Nəğmə və Azərbaycan dili və ədəbiyyatı müəllimi Məhərrəm müəlliminin oğludur - o dörd il xəstəxanada yatıb, indi müalicəsini bitirib, geri qayıdıb və öz sinfi ilə davam etmək istəyir, uşağın qəlbini qırmayın. Onsuz uşaqlığının ən rəngli illərini xəstəxana yatağında keçirib. Maarif şöbəsinin müdiri Məhərrəm müəllim dedi ki, bu uşaq dörd illik psixoloji travma alıb. Biz ona dəstək olmalıyıq, qoy öz sinfində oxusun. Mən əvvəlcə Məhərrəm müəllimə, sonra məktəb müəllimlərinə təşəkkür etdim və çəliyimi də götürüb öz sinifimin sırasına qayıtdım.



*Zəhra Allahverdiyeva,*
*Azərbaycan Dövlət Pedaqoji Universiteti, Filologiya fakültəsi, Xarici dil müəllimliyi (Fransız dili) ixtisası, FRD2209B qrup tələbəsi*

**Təsisçi və Baş redaktor**
**Mahirə Hüseynova**
*Baş redaktorun müavini*
**Leyla Calalova**

*Məsul katib*
**Möhübbət Məmmədov**
*Korrektor*
**Aynurə Babayeva**

Redaksiya heyəti:
**İbrahim Bayramov**
**Könül Həsənova**
**Səməd Vəkilov**
**Fərrux Rüstəmov**
**Cəlal Allahverdiyev**

Azərbaycan Respublikası Mediaının İnkişaf Agentliyi Media Reyestri Şəhadətnaməsi
Qeydiyyat:
№: CA61EF8114733BA
**Ünvanımız:** Bakı şəhəri, Ü.Hacıbəyov küçəsi 68

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində ofset üsulu ilə çap olunmuşdur.
**Tiraj: 200 Sifariş: 2274**